INSTITUTE OF ARCHAEOLOGY AND ETHNOGRAPHY

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES

SEBA SEOUL - BAKU
AZERBAIJAN-KOREAN CULTURAL EXCHANGE ASSOCIATION

**Azərbaycanda erkən hominid azıxantropun tapılmasının**
**50-illiyinə həsr olunmuş**
**"*Azərbaycanda Azıx mağarası və miqrasiya axınlari*"**
**beynəlxalq elmi konfransın**

# QƏTNAMƏSİ

2018-ci il oktyabrın 1-dən 5-dək Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində və qədim Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhərində keçirilmiş Beynəlxalq elmi konfransa dünyanın 5 ölkəsindən 40-a yaxın mütəxəssislər qatılmışdı.

Konfransın iş müddəti ərzində 40-a yaxın elmi məruzə dinlənildi və Avrasiyanın, o cümlədən Qafqazın ən qədim keçmişinin tədqiqinin əsas problemlərinə həsr edilmiş geniş elmi diskussiya keçirildi. Konfrans iştirakçıları Azərbaycanın əsas paleolit abidələrindən aşkar olunmuş daş alətlər, o cümlədən Azıx mağarasının aşağı qatlarından əldə olunan kolleksiya ilə tanış oldular. Beynəlxalq konfransın üzvləri tərəfindən Azıx mağarasındakı alt qatın hər dörd təbəqəsində (VII, VIII, IX, X) tapıntıların arasında mübahisə doğurmayan artefaktların mövcudluğunu təsdiq etdilər.

Konfransın gedişində paleolit dövrünün çoxtəbəqəli "Qaraca" arxeoloji abidəsinə səfər təşkil olundu və yerində geniş diskussiya ilə müşayət olunan elmi-təcrübi seminar keçirildi.

Konfrans nümayəndələri Qafqazın əsas erkən paleolit abidələrindən biri kimi Azıx mağara düşərgəsinin böyük elmi önəmini yekdilliklə qeyd etdilər. Konfransın yekununda iştirakçılar son illərdə Azərbaycanda aparılan arxeoloji tədqiqatların səviyyəsini yüksək dəyərləndirdilər.

Avrasiyada qədim insanın ilkin məskunlaşma proseslərinin öyrənilməsində Azərbaycanın önəmli yerini nəzərə alaraq konfrans, ölkənin ən qədim keçmişinin elmlərarası tədqiqinin vacibliyini və belə problemin həlli icrasının Azərbaycan Milli Elmlər Akademiyasının diqqətinə çatdırdı.

Konfrans 2022-ci ildə Azərbaycanda paleolitşünaslığın banisi Məmmədəli Hüseynovun 100 illiyinə həsr olunmuş Beynəlxalq konfransın keçirilməsini məqsədəuyğun hesab etdi.